

*Dəmir Çeşməli*

# Üz-gözündən görüş yağır

### Bir yol daşım var

Gözümə görünmür, gözüm üstədi,
Uğurum boylanır, izim üstədi,
Deyimim deyilib sözüm üstədi,
Bəxtəvərəm, belə yol yoldaşım var.

Oturub dizimdə, dizim-dizimdi,
Bu yan sıradı o yan düzümdü.
Dünya ki var, bircə kərə gəzimdi,
Şükür ki mən sağam, sağ-sol daşım var.

Qara-qaraladı, ağımda-ağı,
Dağa çəkdi dağı, dağımda-dağı.
Kədərlənib, qəmli çağımda-çağı,
Hardasa gözləyən, bir yol daşım var.

### Dərdimin o biri-biri

Məhəbbətim qoşalaşdı,
Dərdimin o biri-biri.
Gör kim-kimlə sevdalaşdı,
Dərdimin o biri-biri.

İtmişini köçə dedim,
Bitmişini heçə dedim,
Seçdiyini seçə dedim,
Dərdimin o biri-biri.

Baxışı nə deyir, gözdə,
Azıb qalıb, qarlı izdə.
Üstümə əylib düz də,
Dərdimin o biri-biri.

Baxt yerini görən olub,
Dərdiyini dərən olub,
Ona könül verən olub,
Dərdimin o biri-biri.

### Göyərsən, taparam səni

Tanışdı yol mənə, iz görə-görə
Külümdə sönürəm, köz görə-görə,
Gözümə baxırsan, göz görə-görə,
Deyərsən, axtarıb taparam səni.

Yadların yanında doğman olmuşam,
Təbib olmasam da loğman olmuşam,
Bir gülün bülbülü, bağban olmuşam,
Göyərsən, axtarıb taparam səni.

Dərdim yazmışam yazana qalıb,
Dildən-dilə düşüb, ozana qalıb,
Ay Dəmir əlacı düzənə qalıb,
Öyərsən, axtarıb taparam səni.

### Adsız sətirlər

Döyünən ürək bilərsən,
Bilib, bir təhər gələrsən.

Üzümə doğar şəfəqlər,
Qəmlənib, qəhər gələrsən.

Jalələr gülər, üzünə,
Gözümə gövhər gələrsən.

Yadıma yaddan düşərsən,
Canında bəhər gələrsən.

Günorta günə düşərsən,
Gələndə səhər gələrsən.

O başdan bu başa qonan
Gözündə xəbər gələrsən.

### Üz-gözündən görüş yağır

Göz baxırdı, göz dolusu,
Əl ki yetmir, ələ neynim.
Dil sözündü, söz dolusu,
Dinir elə-belə, neynim.

Ayaq vursan üzü yola,
Qiblə olur sözü yola,
Dağ döşündə gözü yola,
Dözür daşda yelə, neynim.

Addım-addım yeriş yağır,
Çıxış donub giriş yağır,
Üz-gözündən görüş yağır,
Keçir gülə-gülə, neynim.

### Yanılmışam

Şübhələr dırmaşır başa,
Baxan-baxmır gözə-qaşa.
Ayaqlar ilişir daşa,
Yerişimi yanılmışam.

Üstümə gəlir həsrəti,
Dərdimə gülür həsrəti,
Öldürür, ölür həsrəti,
Bir işimi yanılmışam.

Külündən işarır közü,
Ürəymi tərpətdi sözü.
Görmədim gözündə-gözü,
Girişimi itirmişəm.

### Bayatılar

Əzizim orda məni,
Qoymasın darda məni,
İtiribsə yoxunda
Axtarsın varda məni.

Əzizim köçəsiydi,
Yanımnan keçəsiydi,
Görüş günün unutdum
O ayın neçəsiydi.

Əzizim deyən gələ,
Özünü öyən gələ,
Görüşünə inam yox
Bu dağı əyən gələ.

Mən aşıq, haray eylər,
Gün sayar, ay-ay eylər,
Quşun qonan məkanı
Quş qonmaz saray eylər.

Böyüdüm üzü enişə
Böyüdüm üzü enişə,
Dəyişdim düzü enişə,
Taladım izi enişə,
Boylandım boyu yuxarı.

Əlimdə donur olanı,
Ovcumda yatır qalanı.
Üstümə daşır dolanı,
Dırmaşır heyi yuxarı.

Dibi görsənir dərində,
Yeri var yerli yerində.
Gözləri qalıb birində,
Əldəyməz göyü yuxarı.

Keçilməz yolu keçmişdim,
Suyundan dadıb içmişdim.
Onu da özüm seçmişdim,
Sayıldı sayı yuxarı.

### Söz yolumu

Ünüm üstə səfər etdim,
Tuta bildim düz yolumu.
Bələn aşdım, cığır getdim,
Sahmalandım iz yolumu.

Biri kələ-kötür dedi,
Biri burda bitir dedi,
Biri görüb götür dedi,
Çəpərlədi öz yolunu.

Gah suya salıb sındırdım,
Gahdan da şamın yandırdım.
Ahəstə sözüm qandırdım,
Sevindirdim söz yolumu.

ədalət.-2018.-9 fevral.-S.7.